# “BTB Kapital Investisiya Şirkəti” ASC

**Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

31 Dekabr 2020-ci il tarixində bitən il üzrə

## "BTB Kapital İnvestisiya Şirkəti" ASC

### MÜNDƏRICAT

Səhifə


MÜSTƏQİL AUDİTORUN RƏYİ ........ 1-2

31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI:

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT ........ 3
MALİYYƏ VƏZIYYƏTİ HAQQINDA HESABAT ........ 4
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 5
PUL HƏRƏKƏTLƏRİ HAQQINDA HESABAT ........ 6

MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR:

1. GİRİŞ ........ 7
2. MÜHÜM UÇOT SİYASƏTLƏRİ ........ 7
3. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ 11
4. ƏMƏLİYYAT GƏLİRLƏRİ ........ 15
5. İNVESTİSİYA GƏLİRLƏRİ ........ 15
6. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR ........ 15
7. KOMİSSİYA XƏRCLƏRİ ........ 15
8. AGENT XƏRCLƏRİ ........ 16
9. DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ ........ 16
10. MƏNFƏƏT VERGİSİ ........ 16
11. QEYRİ-MADDİ AKTİVLƏR VƏ ƏSAS VƏSAİTLƏR ........ 17
12. PUL VƏ PUL EKVİVALENTLƏRİ ........ 18
13. TİCARƏT VƏ SAİR DEBİTOR BORCLARI ........ 18
14. QISA-MÜDDƏTLİ İNVESTİSİYALAR ........ 18
15. ADİ SƏHMLƏR ........ 19
16. QISA-MÜDDƏTLİ İNVESTİSİYALAR ÜZRƏ ÖHDƏLİKLƏR ........ 19
17. KREDİTOR BORCLARI ........ 19
18. ƏLAQƏLİ TƏRƏFLƏR İLƏ ƏMƏLİYYATLAR ........ 20
19. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASI ........ 20
20. ŞƏRTI ÖHDƏLIKLƏR VƏ ƏMƏLIYYAT RISKLƏRI ........ 22
21. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR ........ 22

Davud Mamedov
Accounting, Financial Advisory

Globus Center, 16-th floor, AZ1065, J.Jabbarli 609, Baku, Azerbaijan
+994 12 4048548
www.davudmamedov.com

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarları və Direktoruna:

## Rəy

Biz "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2020-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarətmə Səlahiyyətləri olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ya uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını planlaşdırıb həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını planlamaq üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Davud Mamedov MMC

5 Mart 2021-ci il
Bakı, Azərbaycan

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ "DAVUD MAMEDOV" MÜHASİBATLIQ / MALİYYƏ MƏSLƏHƏTÇİSİ

## "BTB Kapital İnvestisiya Şirkəti" ASC

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2020-CI İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| Əməliyyat gəlirləri | 4 | 749,480 | 193,867 |
| **Cəmi gəlirlər** | | **749,480** | **193,867** |
| İşçi heyəti ilə bağlı xərclər | 6 | (144,194) | (126,387) |
| Komissiya xərcləri | 7 | (204,831) | (64,842) |
| Agent xərcləri | 8 | (50,716) | - |
| Digər əməliyyat xərcləri | 9 | (180,139) | (44,138) |
| **Əməliyyat mənfəəti / (zərəri)** | | **169,600** | **(41,500)** |
| Faiz gəlirləri | 12 | 109,696 | 31,247 |
| İnvestisiya gəliri | 5 | 5,873 | - |
| Digər gəlirlər | | - | 1,350 |
| Xarici valyuta məzənnələri üzrə fərqlər | | (6,160) | - |
| **Vergidən əvvəlki mənfəət / (zərər)** | | **279,009** | **(8,903)** |
| Mənfəət vergisi | 10 | (56,528) | 2,553 |
| **Xalis mənfəət / (zərər)** | | **222,481** | **(6,350)** |
| Digər məcmu gəlir | | - | - |
| **İl üzrə məcmu gəlir** | | **222,481** | **(6,350)** |

Cəmiyyətin rəhbərliyi adından:

"BTB KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" ASC • "BTB CAPITAL INVESTMENT COMPANY" OJSC • BTB Kapital

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

"RSM AZERBAIJAN" MMC • RSM

Tural Məhərrəmov

Cəmiyyətə mühasibatlıq xidmətlərini göstərən "RSM Azərbaycan" MMC-nin Direktoru
Bakı, Azərbaycan

5 Mart 2021

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

# "BTB Kapital İnvestisiya Şirkəti" ASC

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2020-CI İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2020 | 31 dekabr 2019 |
|---|---|---|---|
| **UZUN-MÜDDƏTLİ AKTİVLƏR** | | | |
| Qeyri-maddi aktivlər | 11 | 88,233 | 60,000 |
| Əsas vəsaitlər | 11 | 7,169 | 3,506 |
| Təxirə salınmış vergi aktivi | 10 | - | 15,266 |
| **Cəmi uzun-müddətli aktivlər** | | **95,402** | **78,772** |
| **CARİ AKTİVLƏR** | | | |
| Pul və pul ekvivalentləri | 12 | 1,259,011 | 837,480 |
| Ticarət və sair debitor borclar | 13 | 42,326 | 2,304 |
| Qısa-müddətli investisiyalar | 14 | 116,100 | 892,784 |
| **Cəmi cari aktivlər** | | **1,417,437** | **1,732,568** |
| **CƏMİ AKTİVLƏR** | | **1,512,839** | **1,811,340** |
| **KAPİTAL** | | | |
| Adi səhmlər | 15 | 1,000,000 | 1,000,000 |
| Yığılmış mənfəət / (zərər) | | 165,280 | (57,201) |
| **Cəmi kapital** | | **1,165,280** | **942,799** |
| **CARİ ÖHDƏLİKLƏR** | | | |
| Qisa-müddətli investisiyalar üzrə öhdəliklər | 16 | 233,590 | - |
| Kreditor borclar | 17 | 84,264 | 11,786 |
| Cari mənfəət vergisi öhdəliyi | | 26,488 | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 10 | 3,217 | - |
| Portfel öhdəlikləri | | - | 856,755 |
| **Cəmi cari öhdəliklər** | | **347,559** | **868,541** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1,512,839** | **1,811,340** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov
Direktor
Bakı, Azərbaycan

Tural Məhərrəmov
Cəmiyyətə mühasibatlıq xidmətlərini göstərən "RSM Azərbaycan" MMC-nın Direktoru
Bakı, Azərbaycan

5 Mart 2021

## “BTB Kapital İnvestisiya Şirkəti” ASC

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Adi səhmlər | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2019-cu il** | **350,000** | **(50,851)** | **299,149** |
| Adi səhmlərin buraxılışı | 650,000 | - | 650,000 |
| İl üzrə cəmi məcmu zərər | - | (6,350) | (6,350) |
| **31 dekabr 2019-cu il** | **1,000,000** | **(57,201)** | **942,799** |
| Adi səhmlərin buraxılışı | - | - | - |
| İl üzrə məcmu gəlir | - | 222,481 | 222,481 |
| **31 dekabr 2020-ci il** | **1,000,000** | **165,280** | **1,165,280** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Tural Məhərrəmov

Cəmiyyətə mühasibatlıq xidmətlərini göstərən
“RSM Azərbaycan” MMC-nın Direktoru
Bakı, Azərbaycan

5 Mart 2021

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

## "BTB Kapital İnvestisiya Şirkəti" ASC

**PUL HƏRƏKƏTLƏRİ HAQQINDA HESABAT**
**31 DEKABR 2020-CI İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL HƏRƏKƏTLƏRİ** | | | |
| Müştərilərdən mədaxil | | 709,458 | 192,236 |
| Faiz gəlirləri | | 109,696 | 31,247 |
| Kreditorlara ödənişlər | | (367,894) | (78,563) |
| Vergi ödənişləri | | (11,557) | (3,098) |
| İşçi heyəti ilə bağlı ödənişlər | | (144,194) | (126,990) |
| **Əməliyyat aktivlərində xalis dəyişikliklərdən əvvəlki xalis əməliyyat hərəkəti** | | **295,509** | **14,832** |
| **Əməliyyat aktivlərində xalis dəyişikliklər:** | | | |
| Qoyulmuş qısa-müddətli investisiyalar | 14 | 776,684 | (892,783) |
| Qısa-müddətli investisiyalar üzrə öhdəliklər | 16 | 233,590 | |
| Portfel öhdəlikləri | | (856,663) | 856,755 |
| Digər cari aktivlər | | - | (70) |
| **Əməliyyat fəaliyyətindən xalis pul hərəkətləri** | | **449,120** | **(21,266)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL HƏRƏKƏTLƏRİ** | | | |
| Alınmış dividendlər | 5 | 5,873 | |
| Əsas vəsaitlərin alışı | 11 | (5,229) | (1,053) |
| Qeyri-maddi aktivlərin alışı | 11 | (28,233) | - |
| **İnvestisiya fəaliyyətindən xalis pul hərəkətləri** | | **(27,589)** | **(1,053)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN PUL HƏRƏKƏTLƏRİ** | | | |
| Adi səhmlərin buraxılışı | 15 | - | 650,000 |
| **Maliyyələşdirmə fəaliyyətindən xalis pul hərəkətləri** | | **-** | **650,000** |
| **İLİN ƏVVƏLİNƏ PUL VƏ PUL EKVİVALENTLƏRİNİN QALIĞI** | 12 | **837,480** | **209,799** |
| Xalis artım | | 421,531 | 627,681 |
| **İLİN SONUNA PUL VƏ PUL EKVİVALENTLƏRİNİN QALIĞI** | 12 | **1,259,011** | **837,480** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Tural Məhərrəmov

Cəmiyyətə mühasibatlıq xidmətlərini göstərən "RSM Azərbaycan"MMC-nın Direktoru
Bakı, Azərbaycan

5 Mart 2021

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

## 1. GİRİŞ

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") 15 fevral 2018-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və təsis olunmuşdur. Cəmiyyət Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı investisiya şirkəti fəaliyyətinə icazə verən müddətsiz lisenziya əsasında fəaliyyət göstərir. Cəmiyyət 25 dekabr 2018-ci il tarixindən Bakı Fond Birjasının üzvüdür.

Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında qiymətli kağızlar bazarına, eləcə də beynəlxalq səviyyədə maliyyə bazarları alətlərinə investisiya yatırmaq istəyən müştərilərə vasitəçilik xidmətləri və diler xidmətlərinin göstərilməsindən ibarətdir.

Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer: Y.Səfərov küç. 27, Bakı, Azərbaycan, AZ1025.

## 2. MÜHÜM UÇOT SİYASƏTLƏRİ

**Hesabatların uyğunluğunun bəyanatı**

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

**Təqdimatın əsasları**

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

**Ölçülmənin əsasları**

Ədalətli dəyər ölçmə tarixində, əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə, Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi köçürmək üçün ödəniləcək qiymətdir. Öhdəliyin ədalətli dəyəri onun yerinə yetirilməmə riskini əks etdirir.

Mümkün olduqda, Cəmiyyət fəal bazarda həmin alət üçün elan olunmuş qiymətlər üzrə alətin ədalətli dəyərini ölçür. Bazar, qiymətləndirmə məlumatlarını təmin etmək üçün aktivlər və ya öhdəliklər üzrə əməliyyatlar davamlı olaraq kifayət qədər tezlikdə və həcmdə baş verdikdə fəal hesab olunur. Fəal bazarda təyin edilmiş qiymət olmadıqda Cəmiyyət, müşahidə edilə bilən müvafiq məlumatların istifadəsini artıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Seçilmiş qiymətləndirmə üsulu, bazar iştirakçıları əməliyyata qiymət təyin edərkən nəzərə aldıqları bütün amilləri özündə birləşdirir. Ədalətli dəyəri ölçülən və maliyyə hesabatlarında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara

- Səviyyə 1 – Fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – Aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – Ədalətli dəyər qiymətləndirərkən aktiv və ya öhdəliklər üçün müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlar daxil olan qiymətləndirmə üsulundan istifadə edilir (müşahidə edilməyən məlumatlar).

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat**

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Cəmiyyət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

**Funksional və təqdimat valyutası**

Azərbaycan manatı Cəmiyyətin funksional və təqdimat valyutasıdır, çünki əməliyyatların əksəriyyəti Azərbaycan manatı ilə ifadə edilir, ölçülür və ya maliyyələşdirilir. Digər valyutalarla aparılmış əməliyyatlar xarici valyuta ilə əməliyyatlar kimi uçota alınır. Cəmiyyət qeydlərin aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını Azərbaycan manatı ilə və MHBS-yə uyğun olaraq həyata keçirməlidir. Hazırkı maliyyə hesabatları, xüsusi olaraq qeyd edilmiş hallar istisna olmaqla, Azərbaycan manatı ("AZN") ilə təqdim edilir.

**Xarici valyutanın çevrilməsi**

Xarici valyutalarla aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsi ilə funksional valyutaya çevrilir. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə məzənnədən istifadə etməklə funksional valyutaya çevrilir. Xarici valyutalarla olan əməliyyatların çevrilməsindən yaranan bütün fərqlər cari ilin mənfəətində tanınır. Xarici valyuta ilə olan va ilkin dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr əməliyyat tarixinə mövcud ...

Xarici valyuta ilə olan va ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə görə çevrilir.

Cəmiyyət bu maliyyə hesabatlarının hazırlanması üçün 31 dekabr 2020-ci tarixinə olan aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | *31 dekabr 2020* |
|---|---|
| USD 1 | AZN 1.7000 |
| EUR 1 | AZN 2.0890 |
| RUB 1 | AZN 0.0231 |

**Gəlirlərin tanınması**

Səhmlər və ya digər qiymətli kağızların alınması, yaxud biznes müəssisələrinin alınması və ya satılması zamanı aparılan danışıqlar, verilən məsləhətlər, təlimlər və ya üçüncü tərəflər üçün danışıqlarda iştirak etmək nəticəsində yaranmış və əsas əməliyyatın icrası zamanı qazanılmış komissiyalar və haqlar icra başa çatdığı zaman uçota alınır.

Bütün borc alətləri üzrə faiz gəlirləri mənfəət və ya zərər haqqında hesabatda effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

**Əsas vəsaitlər və qeyri-maddi aktivlər**

Əsas vəsaitlər hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əsas vəsaitlərini və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əsas vəsaitlərinin və qeyri-maddi aktivlərin satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda mənfəət və zərər hesabatında əks etdirilir.

Təmir və mühafizə xərcləri baş verdikdə mənfəət və ya zərər haqqında hesabat və digər məcmu gəlir hesab edilir. Köhnəlmə, əsas vəsaitlərinin ilkinə dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla düz xətt metodu istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini faydalı xidmət müddəti tətbiq edilir:

| | |
|---|---|
| Mebel və qurğular | 25% |
| Kompüter avadanlıqları | 25% |

İstifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlər üzrə amortizasiya hesablanmır.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əsas vəsaitlərin və qeyri-maddi aktivlərinin tanınması ...

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Pul və pul ekvivalentləri**

Pul və pul ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə banklarda yerləşən cari hesablar və ödəmə müddəti üç aydan az olan bank depozitləri daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudlaşdırılmış vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul və pul ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Məhdudiyyət qoyulmuş pul vəsaitləri**

Məhdudiyyət qoyulmuş pul vəsaitləri nəğd pul və pul vəsaitlərinin ekvivalentlərindən ayrıca göstərilir.

**Kreditor borcları**

Ticarət və digər kreditor borcları digər tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirdikdə tanınır. İlkin tanınma zamanı kreditor borcları ədalətli dəyəri ilə tanınır və sonrakı dövrlərdə amortizasiya olunmuş dəyər ilə ölçülür. Qısa-müddətli olduğuna görə kreditor borclarında yenidən ölçülmə adətən tətbiq olunmur.

**İşçilərə ödənişlər**

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət, mükafatlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Vergilər**

Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunları əsasında hesablanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri öhdəlik metodundan istifadə etməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəlməyəndə və əməliyyat zamanı nə uçot mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərmədiyi hallarda, təxirə salınmış mənfəət vergisi aktivlərinin və öhdəliklərinin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi aktivləri yalnız bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin istifadə edilə bilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Bundan əlavə, Azərbaycanda Cəmiyyətin fəaliyyəti ilə bağlı ƏDV, əmlak vergisi, ödəmə mənbəyində tutulan vergi və sair müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu Vergilər ümumi və inzibati xərclərin tərkibinə daxil edilir.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat MUBS 24-ə "Əlaqəli tərəflər barədə açıqlamalar" uyğun olaraq açıqlanır.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərələrin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtəri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

## 3. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cəmiyyətin fəaliyyəti üçün münasib olan 31 dekabr 2020-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Digər standartlar, düzəlişlər və şərhlər 2020-ci ildə ilk dəfə tətbiq edilmiş lakin Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir. Cəmiyyət buraxılmış, lakin hələ qüvvəyə minməmiş heç bir standartı, şərhi və ya düzəlişi erkən tətbiq etməmişdir.

**BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik"**, 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

**2015-2017-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər** – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

| Standart | Düzəlişin mövzusu |
|---|---|
| MHBS 3 "Biznes Kombinasiyaları" və MHBS 11 "Birgə Razılaşmalar" | MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır. |
| BMU 12 "Mənfəət Vergisi" | Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır. |

| | |
|---|---|
| BMU 23 "Borc üzrə Xərclər" | Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir. |

**"İşçilərin Mükafatlandırılması Paketləri üzrə Düzəliş, Məhdudlaşdırılma və ya Hesablamalar" üzrə 19 saylı MUBS-a edilən Düzəlişlər** – Dəyişikliklər, keçmiş xidmət dəyəri (ya da hesablama üzrə mənfəət və ya zərəri) müəyyən edilmiş təqaüd öhdəliklərinin (aktivin) yenilənmiş ehtimallardan istifadə edərək ölçülməsi və təklif olunan faydaları və paket aktivlərini müvafiq dəyişiklikdən əvvəl və sonra müqayisə etməklə (məhdudlaşdırılma və ya hesablanmalar), lakin aktivin maksimal həddinin təsirini nəzərə almamaqla ölçülür (müəyyən edilmiş təqaüd paketi müsbət saldo olduqda yarana bilər). BMUS 19-a əsasən, paketin düzəlişindən (məhdudlaşdırılma və ya hesablanmalar) yarana biləcək aktivin maksimal həddinin təsirinin dəyişməsi ikinci mərhələdə müəyyənləşdirilir və digər məcmu gəlirdə normal qaydada tanınır.

Mövcud xidmət xərcinin ölçülməsinə aid olan paraqraflar və müəyyən edilmiş xalis təqaüd öhdəlikləri (aktiv) üzrə xalis faizlərə də düzəliş edilmişdir. İndi müəssisədən plana dəyişikliklər edildikdən sonra hesabat dövrünün qalan hissəsi üçün cari xidmət haqqını və dəqiq faizini müəyyən etmək üçün bu yenidən qiymətləndirmədən yenilənmiş ehtimallardan istifadə etmək tələb olunacaq. Xalis faiz dərəcəsi halında düzəlişlər aydınlaşdırır ki, planın dəyişməsindən sonrakı müddət üzrə xalis faiz dərəcəsi BMUS 19.99-da yenidən qiymətləndirilmiş xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri (aktiv) ilə yenidən qiymətləndirilmədə istifadə edilən diskont dərəcəsinin hasili şəklində hesablanır (həmçinin ianələrin təsiri və xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri nəzərə alınır (aktiv)).

Düzəlişlər prospektiv şəkildə tətbiq olunur. Onlar yalnız illik dövrün başlanğıcında və ya ondan sonrakı dövrdə BMUS 19-a ilk tətbiq edilmiş paket düzəlişləri, məhdudiyyətləri və hesablamalarına tətbiq olunur.

**MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər** – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

**MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər** – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-ə dair dəyişiklikləri dərc etmişdir.

*Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri* – mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-in mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

**MHBS 16 "İcarələr"**, MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan ...

mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

MHBS 16 "İcarələr", 13 yanvar 2016-cı il tarixində dərc olunmuşdur və 1 yanvar 2019-cu il tarixində və həmin tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir.

16 saylı MHBS-yə əsasən tanınmış aktivlərdən istifadə hüququ, "Aktivlərin Dəyərsizləşməsi" adlı 36 saylı BMUS-a uyğun olaraq dəyərsizləşmə üzrə təhlil edilməlidir. Bu əhəmiyyətli icarə müqavilələri üzrə ehtiyat tanınması üçün əvvəlki tələbi əvəz edəcək.

Qısa-müddətli icarələr (12 aylıq və ya daha az) və aşağı dəyərli aktivlər (məsələn fərdi kompüterlər və ofis mebeli) üçün Cəmiyyət 16 saylı MHBS-nin icazə verdiyi formada icarə xərcini düz-xətt metodu əsasında tanımağı seçmişdir.

**MHBS 3 Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"-in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.
Şirkətlər, biznesin yenilənmiş tərifini 2020-ci il yanvarın 1-də və ya ondan sonra baş verən satınalmalara tətbiq etməlidirlər. Daha əvvəl tətbiq edilməsinə icazə verilir.

**"Əhəmiyyətlilik" anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS "Maliyyə Hesabatlarının Təqdimatı" və 8 saylı BMUS *"Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"*-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-nin digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsi maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.
Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvədədir. Erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("İBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, "Baza Faiz Dərəcəsi İslahatı"-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri") dərc etmişdir.
Baza faiz dərəcəsi islahatı aşağıdakı dəyişiklikləri nəzərdə tutur:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblərin yenidən müəyyənləşdirilməsi;
- baza faiz dərəcəsi islahatının birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;

- baza faiz dərəcəsi islahatı nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamaları tələb etmək.

Düzəlişlər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**MHBS 17 "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS "Sığorta müqavilələri"-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 "Sığorta müqavilələri"-ni tətbiq etməlidir.

MHBS 17, 2021-ci il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. MHBS 15 "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 saylı MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ "Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)" dərc etmişdir. Düzəlişlər, öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"** – 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 4. ƏMƏLİYYAT GƏLİRLƏRİ

Əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2020 | 2019 |
|---|---|---|
| Haqq və komissiyalar | 650,299 | 142,590 |
| Dilinq fəaliyyətindən gəlir | 87,192 | 17,841 |
| Məsləhət xidmətləri | 6,358 | 22,020 |
| Yenidən satınalma müqavilələrindən gəlirlər | 5,631 | - |
| Təlim xidmətləri | - | 11,416 |
| **CƏMİ ƏMƏLİYYAT GƏLİRLƏRİ** | **749,480** | **193,867** |

## 5. İNVESTİSİYA GƏLİRLƏRİ

Cəmiyyətin 31 Dekabr 2020-ci ilin sonuna 48,600 AZN məbləğində "Azərbaycan Beynəlxalq Bankı" ASC-də hər birinin dəyəri 0,27 AZN olan 180,000 ədəd səhmin alışına investisiya qoyuluşu olmuşdur. "Azərbaycan Beynəlxalq Bankı" ASC tərəfindən 2019-cu il üzrə dividendlərin paylanması baş vermişdir. Nəticədə Cəmiyyət 5,873 AZN məbləğində dividend gəliri əldə etmişdir.

## 6. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

İşçi heyəti ilə bağlı xərclər aşağıdakılardan ibarətdir:

| | 2020 | 2019 |
|---|---|---|
| Əmək haqqı | 123,497 | 99,374 |
| Sosial sığorta ödənişləri | 20,697 | 16,651 |
| Ezamiyyə xərcləri | - | 4,510 |
| Təlim xərcləri | - | 5,852 |
| **CƏMİ İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR** | **144,194** | **126,387** |

Sosial sığorta ödənişləri Məcburi Dövlət Sosial sığorta haqlarından və İşsizlikdən sığorta haqqlardan ibarətdir.

## 7. KOMİSSİYA XƏRCLƏRİ

2020-ci il üzrə Cəmiyyətin komissiya xərcləri 204,831 AZN təşkil edib (2019: 64,842 AZN). Komissiya xərcləri Cəmiyyətin səhmlər və digər qiymətli kağızların alınması və satılması əməliyyatlarının aparılması üçün müxtəlif investisiya platformaları tərəfindən tutulan komissiyalardan ibarətdir.

## 8. AGENT XƏRCLƏRİ

2020-ci il üzrə Cəmiyyətin agent xərcləri 50,716 AZN təşkil edib (2019: 0 AZN). Agent xərcləri Cəmiyyətin müştərisi ilə aparılmış əməliyyatlardan yaranmış gəlirin müəyyən bir faizin Agentlə bölüşdürülməsindən ibarətdir.

## 9. DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

Digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 2020 | 2019 |
|---|---|---|
| Mühasibatlıq xərcləri | 34,000 | 6,000 |
| Təlim xərcləri | 30,000 | - |
| İT xərcləri | 29,400 | - |
| Hüquq xərcləri | 26,400 | - |
| İcarə xərci | 18,000 | - |
| Ofis xərcləri | 9,515 | 3,746 |
| Investisiya məsləhətləri xərci | 8,900 | - |
| Bank komissiyaları | 7,131 | 3,494 |
| Amortizasiya xərci | 1,566 | 1,352 |
| Üzvlük haqları | 8,631 | 19,322 |
| Audit xərcləri | 2,950 | 1,770 |
| Reklam xərcləri | 2,328 | 2,180 |
| Sair əməliyyat xərclər | 1,318 | 6,274 |
| **DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ** | **180,139** | **44,138** |

## 10. MƏNFƏƏT VERGİSİ

| | 2020 | 2019 |
|---|---|---|
| Cari mənfəət vergisi | (38,045) | - |
| Təxirə salınmış mənfəət vergisi üzrə xərc / (gəlir) | (18,483) | 2,553 |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **(56,528)** | **2,553** |

31 Dekabr 2020-ci və 31 Dekabr 2019-cu il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarətdir:

| | 2019 | Dəyişiklik | 2020 |
|---|---|---|---|
| Keçmiş illərin bölüşdürülməmiş zərəri | 76,330 | (76,330) | - |
| Qeyri maddi aktivlər üzrə amortizasiya | - | (14,323) | (14,323) |
| Əsas vəsaitlər üzrə amortizasiya | - | (1,762) | (1,762) |
| **Cəmi vergiyə cəlb olunan müvəqqəti fərqlər:** | **76,330** | **(92,415)** | **(16,085)** |
| **Yerli vergi dərəcəsi ilə (20%) xalis təxirə salınmış vergi öhdəliyi/ (aktivi):** | **15,266** | **(18,483)** | **(3,217)** |

Mənfəət vergisi üzrə xərc / (gəlir) aşağıdakı kimi hesablanmışdır:

| | 2020 | 2019 |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət / (zərər)** | **279,009** | **(8,903)** |
| - 20% həcmində hesablanmış mənfəət vergisi | (55,802) | 1,781 |
| - Gəlirdən çıxılmayan xərclər | (62) | 772 |
| - Digər fərqlər | (664) | - |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **(56,528)** | **2,553** |

## 11. QEYRİ-MADDİ AKTİVLƏR VƏ ƏSAS VƏSAİTLƏR

| | Qeyri-maddi aktivlər | Ofis avadanlığı | Cəmi qeyri-maddi aktivlər və əsas vəsaitlər |
|---|---|---|---|
| **İlkin dəyər:** | | | |
| **1 Yanvar 2019-cu il** | - | **4,353** | **4,353** |
| **Alış** | 60,000 | 1,053 | 61,053 |
| **31 Dekabr 2019-ci il** | **60,000** | **5,406** | **65,406** |
| Alış | 28,233 | 5,229 | 33,462 |
| **31 Dekabr 2020-ci il** | **88,233** | **10,635** | **98,868** |
| **Yığılmış amortizasiya:** | | | |
| **1 Yanvar 2019-cu il** | - | (549) | (549) |
| Amortizasiya xərci | - | (1,351) | (1,351) |
| **31 Dekabr 2019-cu il** | - | **(1,900)** | **(1,900)** |
| Amortizasiya xərci | - | (1,566) | (1,566) |
| **31 Dekabr 2020-ci il** | - | **(3,466)** | **(3,466)** |
| **Xalis balans dəyəri:** | | | |
| **31 dekabr 2019-cu il** | **60,000** | **3,506** | **63,506** |
| **31 dekabr 2020-ci il** | **88,233** | **7,169** | **95,402** |

Cəmiyyətin qeyri-maddi aktiv kimi tanıdığı 60,000 AZN məbləğ Bakı Fond Birjasına ödənilən birdəfəlik üzvlük haqqıdır. Aktivin müddəti qeyri-məhdud olduğu üçün onun amortizasiası hesablanmır. Aktiv hər ilin sonunda qiymətdən düşməyə görə rəhbərlik tərəfindən yoxlanılır.

## 12. PUL VƏ PUL EKVİVALENTLƏRİ

| | 31 Dekabr 2020 | 31 Dekabr 2019 |
|---|---|---|
| Carı bank hesabları manat ilə | 235,965 | 826,656 |
| Carı bank hesabları valyuta ilə | 56,643 | 1,253 |
| Depozit hesabı manat ilə | 650,000 | - |
| Xarici investisiya platformalarda hesablar valyuta ilə | 316,183 | 9,351 |
| Bank hesabında bloklanmış vəsait manat ilə | 220 | 220 |
| **CƏMİ PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **1,259,011** | **837,480** |

235,807 AZN (2019: 826,511 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin "Bank BTB" ASC bankında yerləşdirdiyi AZN hesabının cari qalığlarından ibarətdir.

158 AZN (2019: 145 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin "AzərTürk Bank" ASC bankında yerləşdirdiyi AZN hesabının cari qalığlarından ibarətdir.

56,615 AZN (2019: 1,253 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin "Bank BTB" ASC bankında yerləşdirdiyi USD cari hesabının qalığından ibarətdir.

28 AZN (2019: 0 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin "Bank BTB" ASC bankında yerləşdirdiyi EUR cari hesabının qalığından ibarətdir.

650,000 AZN (2019: 0 AZN) müddətli depozit hesabın qalığıdır. Depozit müqaviləsi 24 dekabr 2020-ci il tarixində bağlanılıb, müddəti 1 ay təşkil edir. 31 dekabr 2020-ci il tarixində bitən il üzrə belə faiz gəlirləri 109,696 AZN (2019: 31,247 AZN) təşkil etmişdir.

316,183 AZN (2019: 9,351 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin xarici investisiya platformalarda valyuta ilə olan hesabların qalığlarından ibarətdir.

220 AZN (2019: 220 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin "Bank BTB" ASC bankında yerləşdirdiyi AZN xüsusi bloklanmış hesabının qalığından ibarətdir. "Bank BTB" ASC-nin Cəmiyyətə verilmiş qarantiya məktubuna görə vəsait müvəqqəti olaraq bloklaşdırılmışdır.

## 13. TİCARƏT VƏ SAİR DEBİTOR BORCLARI

Ticarət və sair debitor borcları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2020 | 31 dekabr 2019 |
|---|---|---|
| Ticarət debitor borcları | 40,591 | 1,631 |
| İşçilərə ödənilən avans | 777 | 467 |
| Sosial Sığorta Fonduna ödənilən avans | 67 | 136 |
| Ödənilmiş avanslar | 891 | 70 |
| **CƏMİ TİCARƏT VƏ SAİR DEBİTOR BORCLARI** | **42,326** | **2,304** |

## 14. QISA-MÜDDƏTLİ İNVESTİSİYALAR

31 dekabr 2020-ci il tarixində bitən il üzrə qısa-müddətli investisiyaların cəmi məbləği 116,100 AZN təşkil edir. Bu məbləğin 67,500 AZN məbləği Yeniden satınalma müqaviləsi (REPO) üzrə investisiya qoyuluşunu təşkil edir.

Yerdə qalan hissə Cəmiyyətin 31 Dekabr 2020-ci ilin sonuna 48,600 AZN məbləğində "Azərbaycan Beynəlxalq Bankı" ASC-də hər birinin dəyəri 0,27 AZN olan 180,000 ədəd səhmin alışına investisiya qoyuluşu mövcuddur.

## 15. ADİ SƏHMLƏR

Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə nizamnamə kapitalı hər birinin nominal dəyəri 1,000 AZN olan 350 ədəd səhmdən ibarət olmuşdur. 31 dekabr 2018-ci il tarixinə səhmlərin 100%-i “Bank BTB” ASC-ya məxsusdur.

13 mart 2019-cu il tarixli Cəmiyyətin Səhmdarının MŞ-054/02-2019 nömrəli qərarı ilə 13 iyun 2019-cu il tarixində Cəmiyyətin nizamnamə kapitalında hər birinin nominal dəyəri 1,000 AZN olan 250 ədəd səhmin alışı üçün nizamnamə kapitalına investisiya qoyulmuşdur. Səhmlərin 100%-i “Bank BTB” ASC-ya məxsusdur.

24 Oktyabr 2019-cu il tarixli Cəmiyyətinin Səhmdarının MŞ-280/01-2019 nömrəli qərarı ilə 17 dekabr 2019-cu il tarixində Cəmiyyətin nizamnamə kapitalında hər birinin nominal dəyəri 1,000 AZN olan əlavə 400 ədəd adi səhmin alışı üçün nizamnamə kapitalına investisiya qoyulmuşdur. Səhmlərin 100%-i “Bank BTB” ASC-ya məxsusdur.

2020-ci il üzrə nizamnamə kapitalına investisiya qoyuluşu edilməmişdir. Beləliklə, 31 Dekabr 2020-ci il tarixinə Cəmiyyətin cəmi səhmlərin dəyəri 1,000,000 AZN təşkil etmişdir (2019: 1,000,000 AZN)

## 16. QISA-MÜDDƏTLİ İNVESTİSİYALAR ÜZRƏ ÖHDƏLIKLƏR

31 dekabr 2020-ci il tarixində bitən il üzrə qısa-müddətli investisiyalar üzrə cəmi öhdəliklər 233,590 AZN (2019: 0 AZN) təşkil edir. Bu öhdəliklər Cəmiyyətin müştəriləri tərəfindən investisya əməliyyatlarının aparılması məqsədləri üçün ödənilən, lakin ilin sonuna qədər icra olunmayan məbləğlərdən ibarətdir.

## 17. KREDİTOR BORCLARI

Kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2020 | 31 dekabr 2019 |
|---|---|---|
| Ticarət kreditor borclar | 78,796 | 11,476 |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 5,468 | 310 |
| **CƏMİ KREDİTOR BORCLAR** | **84,264** | **11,786** |

Dövlət büdcəsinə vergi öhdəlikləri 2020-ci il qeyri-rezidentlər üzrə yaranan əlavə dəyər vergisi, ödəmə mənbəyində tutulan gəlir vergisindən və əmlak vergisindən ibarətdir.

## 18. ƏLAQƏLİ TƏRƏFLƏR İLƏ ƏMƏLİYYATLAR

| | 2020 | | 2019 | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| ƏMƏLİYYAT GƏLİRİ: | | 749,480 | | 193,867 |
| Səhmdar | 349,967 | | 97,490 | |
| FAİZ GƏLİRİ: | | 109,696 | | 31,247 |
| Səhmdar | 109,696 | | 31,247 | |
| PUL VƏ PUL EKVİVALENTLƏRİ | | 1,259,011 | | 837,480 |
| Səhmdar | 942,450 | | 837,298 | |
| PORTFEL ÖHDƏLİKLƏRİ | | - | | 856,755 |
| Səhmdar | - | | 856,755 | |

## 19. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, valyuta, likvidlik və faiz riski), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk sərhədlərini təyin etmək və sonradan riskərin o sərhədlər arasında saxlanılmasını təmin etməkdir.

### Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri broker şirkətləri və fərdi müştərilərdir. Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra direktor tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir.

Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

Cəmiyyətin hesabat tarixinə kredit riskinə məruz qalan aktivləri və ödhəlikləri əhəmiyyətli olmamışdır və beləliklə kredit risklərinə məruz qalmanın maliyyə hesabatlarına təsiri əhəmiyyətsizdir.

### Bazar riski

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişiklərinə məruz qalan xarici valyuta və faiz gəliri/xərci yaradan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna

baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

### Xarici valyuta riski

Xarici valyuta riskini idarə edərkən Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə ABŞ dollar və AVRO ilə aşağıdakı maliyyə aktivləri və öhdəlikləri vardır:

| | **31 Dekabr 2020** | **31 Dekabr 2019** |
|---|---|---|
| Pul və pul ekvivalentləri | 372,826 | 10,602 |
| Qisa-müddətli investisiyalar üzrə öhdəliklər | (233,590) | - |
| Qısa-müddətli investisiyalar | - | 892,784 |
| Portfel öhdəlikləri | - | (856,755) |
| **Xalis valyuta mövqeyi** | **139,236** | **46,631** |

Hesabat tarixinə xarici valyuta riskinə məruz qalan aktivlərin ödhəliklərdən daha yüksək olduğunu nəzərə alaraq valyuta riski mövcud deyil.

### Likvidlik riski

Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir.

Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə aşağıdakı maliyyə aktivləri və öhdəlikləri vardır:

| | **31 Dekabr 2020** | **31 Dekabr 2019** |
|---|---|---|
| Pul və pul ekvivalentləri | 1,259,011 | 837,480 |
| Ticarət debitor borcları | 40,591 | 1,631 |
| Qısa-müddətli investisiyalar | 116,100 | 892,784 |
| Qisa-müddətli investisiyalar üzrə öhdəliklər | (233,590) | - |
| Portfel öhdəlikləri | - | (856,755) |
| Cari mənfəət vergisi öhdəliyi | (26,488) | - |
| Kreditor borcları | (84,264) | (11,786) |

Cəmiyyətin bütün maliyyə aktivlərinin və öhdəliklərinin ödəmə müddəti bir (1) aya qədərdir.

Qısa-müddətli investisiyalar və nağd pullar Cəmiyyətin qısamüddətli öhdəliklərini ödəmək üçün kifayətdir. Buna görə, Cəmiyyətin likvidlik riskinə təsiri əhəmiyyətsizdir.

## 20. ŞƏRTI ÖHDƏLIKLƏR VƏ ƏMƏLIYYAT RISKLƏRI

**Vergi qanunvericiliyi**

Cəmiyyətə tətbiq edilən vergi, valyuta qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Azərbaycan vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəalyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta ilə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

**Kapital məsrəfləri ilə bağlı öhdəliklər**

31 dekabr 2020-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri mövcud olmamışdır.

## 21. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra Cəmiyyətdə baş vermis əhəmiyyətli hadisələr qeydə alınmamışdı.